## “Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti”nin təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli, 156 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 4 iyun 2010-cu il
104

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 4 iyun tarixli, 104 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi

## M Ü D D Ə T İ

1. Təhsilin pillələri və səviyyələri üzrə təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmışdır və müvafiq dövlət təhsil standartlarına uyğun olaraq müxtəlif təhsil pillələri və səviyyələri üzrə təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddətlərini müəyyən edir.

### 1.1. Məktəbəqədər təhsil üzrə

Bu pillədə təhsil müddəti 3 ildir. 5 yaşdan 6 yaşa qədər olan müddət məktəbə hazırlıq mərhələsi hesab olunur.

### 1.2. Ümumi təhsil üzrə

İbtidai təhsil — 4 il (I-IV siniflər)
Ümumi orta təhsil — 5 il (V-IX siniflər)
Tam orta təhsil — 2 il (X-XI siniflər)

### *1.3. Peşə təhsili üzrə*[1]

*“Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun 9.8-ci maddəsinə əsasən peşə təhsili müəssisələrində təhsil müddəti aşağıdakı qruplara görə müəyyənləşdirilir:*

*ümumi orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 2 il;*

*tam orta təhsil bazasından qəbul olunmuş və ilk peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 6 ay, texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 1 il;*

*ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda - 3 il;*

*ümumi orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 4 il;*

*tam orta təhsil bazasından qəbul olunmuş və yüksək texniki peşə təhsili alanlar üçün təşkil edilən qruplarda - 3 il;*

*Ümumi orta və tam orta təhsil səviyyəsini bitirib, istehsalatda və ya digər iş sahələrində müəyyən nəzəri və praktiki peşə bacarıqları qazanmış şəxslər üçün işəgötürənlərin və fərdlərin öz vəsaiti hesabına sifarişlər əsasında həmin və ya digər peşənin öyrənilməsi, ixtisasın artırılması və yenidənhazırlanma üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.*

### 1.4. Orta ixtisas təhsili üzrə

Orta ixtisas təhsili proqramlarının əyani forma üzrə normativ təhsil müddəti ümumi orta təhsil bazasından qəbul olunanlar üçün 3-4 il, tam orta təhsil bazasından qəbul olunanlar üçün isə 2-3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyən edilir.

### 1.5. Ali təhsil üzrə

Ali təhsil pilləsinin bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4-5 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyən edilir.

Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 1-2 ildir. Qiyabi forma üzrə təhsil müddəti altı

ay artıqdır. Bu müddət ixtisaslaşmaların təhsil proqramları ilə müəyyən edilir.

*Əsas (baza ali) tibb təhsili* proqramlarının təhsil müddəti 5-6 il, rezidenturada isə *2-5* ildir. Bu müddət ayrı-ayrı ixtisasların (ixtisaslaşmaların) təhsil proqramları ilə müəyyən edilir.[2]

Doktoranturada təhsil müddəti 3 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 14 noyabr 2018-ci il, 256 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2431 )**

2. 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 22 dekabr 2018-ci il, 289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 19 dekabr 2018-ci il tarixli **542** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 22 dekabr 2018-ci il, 289** , **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 12, II kitab, maddə 2738 )** ilə “Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti”nin 1.3-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**1.3. İlk peşə-ixtisas təhsili üzrə**~~

~~Tam orta təhsil bazasından qəbul olunmuş qruplarda təhsil müddəti 1 ildir.~~

~~Ümumi orta təhsil bazasından qəbul olunmuş və peşə ilə yanaşı, tam orta təhsilalanlar üçün təşkil edilən qruplarda təhsil müddəti 3 ildir.~~

~~Ümumi orta təhsil bazasından qəbul olunmuş və yalnız peşə təhsili alanlar üçün təşkil edilən qruplarda təhsil müddəti peşənin mürəkkəbliyindən asılı olaraq 1-2 ildir.~~

~~Ümumi orta, tam orta təhsil səviyyəsini bitirib, istehsalatda və ya digər iş sahələrində işəgötürənlərin və fərdlərin sifarişləri əsasında müəyyən peşə üzrə bacarıqlar qazanmış şəxslər üçün həmin və ya digər peşənin öyrədilməsi, ixtisasının artırılması və yenidən hazırlanması üzrə kurslarda təhsil müddəti 6 aya qədərdir.~~

[2] 8 noyabr 2018-ci il tarixli **481** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 14 noyabr 2018-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2431 )** ilə “Təhsil proqramlarının (kurikulumlarının) yerinə yetirilməsi müddəti”nin 1.5-ci bəndinin üçüncü abzasının birinci cümləsində “**Tibb təhsili üzrə əsas təhsi** l” sözləri “**Əsas (baza ali) tibb təhsili** ” sözləri ilə, “**2-6**” rəqəmləri “**2-5**” rəqəmləri ilə əvəz edilmişdir.